

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 83 (22.994)

4 may 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik” mövzusunda məşğələlər keçirilib



***Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.***

Sayca iyirmi beşinci məşğələni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov dahi rəhbərin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən, şərəfli və mənalı ömür yolundan danışıb. Vurğulanıb ki, əsrlərdən bəri xalqımızın ürəyində yaşayan arzular ulu öndər Heydər Əliyevlə reallaşıb. Ümummilli lider özünün də dediyi kimi, ömrünü Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etdirilməsinə sərf edib. Bu dahi şəxsiyyət Azərbaycana, sözün əsl mənasında, artan güc, tükənməz qüdrət, əbədi müstəqillik qazandırıb. Müasir Azərbaycan ulu öndərin reallaşan arzusunun ifadəsinə çevrilib.

“Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik” mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli qeyd edib ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizə və bu idealın gerçəkləşdirilməsi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin bütün dövrlərində özünü əyani şəkildə göstərir. Azərbaycanın milli maraqlarının, milli-mənəvi dəyərlərinin, coğrafi bütünlüyünün, tarixi yaddaşının, milli məfkurəsinin qorunması naminə son dərəcə ağır və çətin dönəmlərdə həyata keçirilən işlər dahi rəhbərin dövlət müstəqilliyimizin bərpası və xilası naminə çoxşaxəli fəaliyyətinin tərkib hissəsidir.

Məruzəçi vurğulayıb ki, ulu öndər Heydər Əliyev həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünüb, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığıyla inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirib.

Elman Cəfərli müstəqil Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən qeyd edib ki, bu inkişaf, ilk növbədə, dahi şəxsiyyətin müəyyən etdiyi siyasi xəttin ardıcıl şəkildə davam etdirilməsinin nəticəsidir.

“Ümummilli lider Heydər Əliyev: tarix və tale” mövzusunda məruzə ilə çıxış edən komitənin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru, gömrük xidməti polkovnik-leytenantı Rahil Tahirli çıxışında deyib ki, zaman hər gün bir daha sübut edir ki, Azərbaycanın yeganə düzgün yolu Heydər Əliyev ideyalarına sədaqətdir. Bu yolda dönməz və əbədi müstəqillik var. Bu yol xalqımızı və dövlətimizi daha xoş, firavan gələcəyə aparır.

Sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə tabeli gömrük orqanları işçiləri arasında keçirilmiş şahmat turnirində fərqlənmiş əməkdaşlar mükafatlandırılıb.

Tədbirə yekun vuran komitə sədri bir daha vurğulayıb ki, illər ötdükcə ulu öndər Heydər Əliyevin böyüklüyü daha dərindən dərk edilir. Ümummilli liderimizin zəngin irsinə dərin ehtiram, siyasi xəttinə dönməz sədaqət daha uğurlu nəticələrə, işıqlı gələcəyə yol açır.

Sonda tədbir iştirakçıları “Dahi şəxsiyyət ” adlı filmə baxıblar.



Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə “Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik” mövzusunda məşğələ keçirilib. Əvvəlcə məşğələ iştirakçıları ulu öndərin təhsil ocağının həyətində ucalan abidəsi önünə gələrək gül dəstələri düzüblər.

Tədbiri məktəbin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov açaraq ulu öndərimizin memarı və qurucusu olduğu Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanılmasındakı misilsiz xidmətlərindən danışıb, onun milli dövlətçilik konsepsiyasından ətraflı söhbət açıb.

Sonra AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin məruzəsi dinlənilib. Məruzədə bildirilib ki, ölkəmizin müstəqilliyinin əsasları dahi şəxsiyyətin uzaqgörənliyi sayəsində hələ ötən əsrin yetmişinci illərində qoyulub. Məhz həmin dövrdən başlayaraq elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə edilib, Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit olunub, milli kadrların hazırlanması üçün mühüm addımlar atılıb.

Qeyd olunub ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndərimizin qətiyyəti sayəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alınıb, torpaqlarımızın işğalına son qoyulub. Dahi lider 1994-cü ildə atəşkəsə nail olaraq ölkəmizin inkişafı üçün şərait yaradıb, xalqın gözlədiyi qurtuluş missiyasını reallaşdırıb. Ümummilli liderin hakimiyyətə qayıdışı Azərbaycana siyasi-iqtisadi sabitlik, hüquqi dövlət quruculuğu, vətəndaş həmrəyliyi gətirib.

Vurğulanıb ki, bu gün ulu öndərin siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan gündən-günə daha da güclənir, beynəlxalq arenada ciddi tərəfdaş kimi qəbul olunur. Ölkəmizin nüfuzu sayəsində regionda qlobal əhəmiyyətə malik layihələr həyata keçirilir, müstəqil respublikamız dünyada sülhün, tolerantlığın carçısı kimi çıxış edir.

Sonra ümummilli liderin həyat və fəaliyyətini əks etdirən videoslayd nümayiş etdirilib, məktəbin “Heydərçilər” xalq çalğı alətləri ansamblının ifasında rəngarəng mahnı və rəqs nömrələri ifa olunub.

Sonda tədbir iştirakçıları məktəbin foyesində ulu öndərə həsr olunmuş şagirdlərin əl işlərindən ibarət sərgiyə baxıblar.

## Elmi-praktik konfrans



***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar “Yolumuz Heydər Əliyev yoludur” mövzusunda elmi-praktik konfrans keçirib.***

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov mövzu ilə bağlı məruzə edib. Məruzədə qeyd olunub ki, ümummilli liderin ömrünün siyasət və hakimiyyət zirvəsində keçmiş bir qərinəni aşan hər ilinin arxasında xalqın işıqlı və xoşbəxt gələcəyi naminə uzaqgörənliklə görülmüş işlər sonsuz nur kimi parlayır.

Vurğulanıb ki, Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elmin, təhsilin, mədəniyyətin inkişafı ulu öndərin adı ilə bağlıdır. Bu gün ulu öndərimizin zəngin ictimai-siyasi fəaliyyəti, irsi hərtərəfli öyrənilir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət kursu ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan bu gün iqtisadi potensialı baxımından regionun lider ölkəsidir. Respublikamız beynəlxalq aləmdə sabit, nüfuzlu bir dövlət kimi öz xüsusi yerini tutub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında da Heydər Əliyev ideyaları uğurla həyata keçirilir. Muxtar respublika iqtisadiyyatının yüksələn xətlə inkişafı hər kəsdə qürur hissi yaradır və bütün bu nailiyyətlər ulu öndərimizin inkişaf strategiyasının təntənəsi kimi qiymətləndirilir.

Tədbirdə Bənəniyar kənd musiqi məktəbinin direktoru Azər Cəfərov, Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Gülsadə Əliyeva, Saltaq kənd ərazi ilk partiya təşkilatının sədri Mahir Əsgərov, Dizə kənd tam orta məktəbinin müəllimi Nənəxanım Əliyeva çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, görkəmli dövlət xadiminin arzuladığı kimi, Azərbaycan bu gün dünyaya Günəş kimi doğmaqdadır. Bu Günəşin nüvəsi, əbədi enerji mənbəyi isə dahi şəxsiyyətin həmişəyaşar ideyalarıdır. Ümummilli liderin parlaq dühası, uzaq gələcəyə hədəflənmiş müdrik siyasəti bundan sonra da müstəqil Azərbaycanımızın bu gününə və gələcəyinə nur saçacaqdır.

Tədbirdə şagirdlər ulu öndərə həsr edilmiş şeirləri bədii qiraət ediblər.

Sonda Yeni Azərbaycan Partiyasına qəbul edilən bir qrup şəxsə üzvlük vəsiqələri təqdim edilib.

## “Ümummilli lider Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti” mövzusunda tədbir olub



***Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Ümummilli lider Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti” mövzusunda tədbir keçirilib.***

Muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən qadınlar, Yeni Azərbaycan Partiyası rayon (şəhər) Qadınlar Şurasının, Heydər Əliyev adına Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edib. Bildirib ki, ölkəmizdə dövlət qadın siyasəti məhz ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində konseptual şəkildə müəyyənləşdirilib və həyata keçirilib. Elə bu səbəbdəndir ki, ölkəmizin ən çətin dövrlərində Azərbaycan qadınları cəmiyyətin həyatında fəal rol oynayaraq müstəqil dövlətçiliyimizin sabahı uğrunda səylə çalışıblar. Bu isə onların geniş fəaliyyəti üçün dahi şəxsiyyətin birbaşa diqqət və qayğısı ilə yaradılan şərait nəticəsində mümkün olub. Ulu öndərin müəyyənləşdirdiyi dövlət qadın siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına uyğun olaraq uğurla inkişaf etdirilir.

Ramilə Seyidova vurğulayıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında da qadınlar diqqət və qayğı ilə əhatə olunub. Təsadüfi deyil ki, təhsil, səhiyyə, mədəniyyət sahələrində çalışanların əksəriyyətini bu gün qadınlar təşkil edir. Onlar cəmiyyət həyatında yüksək fəallıqları ilə seçilir, ailə dəyərlərini qoruyub saxlamaqla çalışdıqları sahədə uğurlar qazanırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri Yeganə Məmmədova “Ulu öndər Heydər Əliyev və ailə dəyərlərimiz”, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əliyeva “Yeni Azərbaycan Partiyasında qadınların təmsilçiliyi” mövzularında çıxış ediblər. Çıxışlarda dövlət qadın siyasəti sahəsində hüquqi bazanın yaradılması istiqamətində ulu öndərimiz tərəfindən müəyyənləşdirilən islahatlardan danışılıb.

Sonda ulu öndər Heydər Əliyevə həsr olunmuş “O, Heydər Əliyev idi” adlı film nümayiş etdirilib, tədbir iştirakçıları muzeyin eksponatları ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir

***Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər aprel ayı ərzində də davam etdirilib.***

Ötən ay Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 49 əcnəbi aşkarlanıb. Onlardan 46-sı barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 3-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 680 müraciət daxil olub. Bu müraciətlərdən 86-sı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Aprel ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 594 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 252-si elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

# Muxtar respublikada yol infrastrukturunun daha da gücləndirilməsi üçün hərtərəfli şərait yaradılıb



*Mədəniyyət yoldan başlayır, – deyirlər. Hər birimiz səyahətdə olduğumuz bir ölkə haqqında danışarkən ilk olaraq buradakı yollardan söhbətə başlayırıq. Çünki yol cəmiyyətin inkişafının ən mühüm göstəricilərindən biridir. Uzaqları yaxınlaşdıran geniş və rahat yollar gedişgəlişi asanlaşdırır, insan həyatına rifah gətirir. Yollarımız, həm də güclü iqtisadiyyatın nəticəsi və yurdumuza gələn turistlərin gözəl təəssüratları kimi yaddaşlarda qalır.*

Muxtar respublikamızda müasir yol infrastrukturunun yaradılması istiqamətində görülən işlər yolnəqliyyat kompleksinin yenilənməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına öz töhfəsini verib. Son illərdə magistral avtomobil yollarının yenidən qurulması Naxçıvanın tranzit imkanlarını xeyli artırıb. Belə ki, Naxçıvan Muxtar Respublikasında hər il 100 kilometrə yaxın yeni avtomobil yolları çəkilərək və müasir standartlar səviyyəsində yenidən qurularaq əhalinin istifadəsinə verilir. Muxtar respublikamızda asfalt-beton zavodlarının müasir avadanlıqlarla təmin olunması, qum-çınqıl karxanaları və bitum anbarlarının istifadəyə verilməsi, yol istismar idarələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi nəticəsində yol infrastrukturunun yenidən qurulması üçün əlverişli şərait yaranıb.

Naxçıvanda yol təsərrüfatı idarəçiliyi kifayət qədər böyük inkişaf yolu keçib. Muxtar respublikamızda bu mühüm əhəmiyyətli sahənin inkişaf etdirilməsi üçün 1 yanvar 1987-ci ildə Naxçıvan Avtomobil Yolları Təmiri və İstismarı İdarəsi təşkil olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1996-cı il 9 dekabr tarixli Fərmanı ilə həmin idarə Naxçıvan Avtomobil Yolları Dövlət Şirkətinə çevrilib, 2018-ci il 14 fevral tarixli Fərmanla isə Naxçıvan Muxtar Respublikasının "Naxavtoyol" Dövlət Şirkətinin əsasında Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi yaradılıb.

Ötən müddət ərzində muxtar respublikamızda yol təsərrüfatının yenidən qurulması üçün xeyli işlər görülüb. Avtomobil Yolları Dövlət Agentliyi və onun tabeliyində olan Yol İstismar idarələri müasir mexanizmlərlə təmin olunub. Belə ki,





son 10 il ərzində yol tikintisində istifadə üçün 5 "Mercedes" markalı özüyükboşaldan avtomaşın, 3 "CAT" markalı, 4 yükləyici ekskavator, 2 qazıcı-yükləyici, 1 tırtıllı yükləyici, 2 buldozer, 4 avtoqreyder, 2 daşqırıcı qurğu, 2 bitumsəpən maşın, 4 vərdənə, 2 "GRAFCO" markalı çat təmiri maşını, 2 qarkürəyən avadanlıq, 1 dartqı, 1 yarımqoşqu, 2 minik avtomobili olmaqla, cəmi 38 müxtəlif təyinatlı texnika alınaraq agentliyin xidməti istifadəsinə verilib.

Agentliyə göstərilən növbəti dövlət qayğısı burada çalışan əməkdaşların iş şəraitinin yaxşılaşdırılması istiqamətində olub. Belə ki, cari il aprel ayının 17-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni inzibati binası istifadəyə verilib. Milli memarlıq üslubunda yüksək keyfiyyətlə təmir olunmuş inzibati bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 21 iş otağı, 50 yerlik akt zalı, arxiv, anbar, 8 ehtiyat otaq və bufet yerləşir. Burada agentliyin aparatı ilə yanaşı, "Siqnal" ixtisaslaşdırılmış layihə istehsalat qrupu üçün də iş şəraiti yaradılıb. İş otaqları kompüter dəstləri və digər avadanlıqlarla təmin olunub. Binada istilik sistemi qurulub, həyətdə abadlıq işləri aparılıb və 5 qaraj istifadəyə verilib. Şübhəsiz, yaxşı iş şəraiti, müasir texnika və keyfiyyətli asfalt təminatı avtomobil yollarının keyfiyyətlə çəkilməsinə və uzun müddət istismarına imkan verəcəkdir.

Avtomobil Yolları Dövlət Agentliyi işçilərinin əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsi də onlarda böyük ruh yüksəkliyi yaradıb. Agentliyin əməkdaşlarından 6 nəfər ölkə Prezidentinin sərəncamına əsasən "Tərəqqi" medalı, 17 nəfər isə Ali Məclis Sədrinin sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif ediliblər.

Yaradılan şəraitə görə dövlətimizə dərin minnətdarlıq hisslərini bildirən agentlik əməkdaşları göstərilən yüksək dövlət qayğısından bəhrələnərək muxtar respublikamızın avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının layihələndirilməsi, tikilməsi, yenidən qurulması, istismarı və qorunub saxlanılması sahəsində fəaliyyətlərini günün tələblərinə uyğun şəkildə qurmaq üçün səylərini artırırlar.

**Əli CABBAROV**

*Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Həyata keçirilən məqsədyönlü və sistemli islahatlar bitkiçiliyin və heyvandarlığın, eləcə də emal sənayesinin inkişafına yol açır.*

# Aqrar sahə Ordubad rayonunda da inkişaf etdirilir



Bu gün muxtar respublikamızın bütün rayonlarında torpaqlardan səmərəli istifadə olunması üçün hərtərəfli şərait yaradılıb. Müxtəlif illərdə qəbul olunmuş dövlət proqramları aqrar bölgə kimi tanınan muxtar respublikada əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, iqtisadi inkişafa öz töhfəsini verməkdədir.

Məlumdur ki, kənd təsərrüfatının inkişafı əhalinin rifah halının yaxşılaşdırılması ilə yanaşı, ərazinin iqtisadi potensialının gücləndirilməsində də mühüm rol oynayır. Kənd adamlarının daimi iş yerinə çevrilən torpaqdan səmərəli istifadə etməsi bolluq yaratmaqla daxili bazarın yerli ərzaq məhsulları ilə təmin olunmasına imkan verir. Hər il bu sahənin inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsi artıq ənənə halını alıb. Kənd təsərrüfatına yeni texnikanın tətbiqi, müasir meliorasiya-irriqasiya sistemlərinin qurulması həm yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ilə nəticələnir, həm də torpaq mülkiyyətçilərinə müasir texnikadan istifadə hesabına məhsul istehsalını artırmalarına kömək edir, eyni zamanda kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin fəaliyyəti dəstəklənir.

Bu gün muxtar respublikamız özünün yeni inkişaf mərhələsindədir. Bu qədim diyarın bütün bölgələrini əhatə edən sürətli sosial-iqtisadi inkişaf bağlar diyarı kimi tanınan Ordubaddan da yan keçməyib. Qədim yurd yerimiz olan Ordubadda torpaq sahələrinin məhsuldarlığı burada kənd təsərrüfatının bütün sahələrinin inkişafına təkan verir. Əkilmiş torpaqlar hesabına isə həm süfrələrimiz bol və keyfiyyətli ərzaq məhsulları ilə zənginləşir, həm də əhalinin məşğulluğu tam təmin edilir.

Hər il rayonda həyata keçirilən meliorasiya-irriqasiya tədbirləri, müasir kənd təsərrüfatı texnikaları ilə təchizatı, torpaq mülkiyyətçilərinin yerli sortlardan istifadəyə daha çox üstünlük verməsi hesabına məhsul istehsalı ilbəil artır. Bu gün Ordubad məhsullarına nəinki muxtar respublikamızda, ondan kənarda da böyük maraq göstərilir.

Ötən təsərrüfat ilini uğurla başa vuran bölgənin torpaq mülkiyyətçiləri cari ildə bol məhsul əldə etmək üçün əkin işinə başlayıb. 2017-ci ilin payızından şum işləri aparılan rayonda yazın ilk günlərindən torpaqlar yenidən şumlanıb, müxtəlif bitkiçilik məhsullarının əkini həyata keçirilib.

Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, cari ilin məhsulu üçün bu yaz mövsümündə 396 hektar sahədə yazlıq bitkilər əkilib. 72 hektarı arpa, 2 hektarı noxud, 92 hektarı lobya olmaqla, əkin sahələrinin 166 hektarını qarğıdalısız dənli və dənli-paxlalı bitkilər, 140 hektarını kartof, 24 hektarını çoxillik, 14 hektarını isə birillik otlar təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Ordubad rayonunda da uğurla davam etdirilir. Rayonda əkilmiş torpaq sahələrinin 52 hektarını tərəvəz təşkil edir. Artıq tərəvəz məhsulları bazarlarda satışa çıxarılır. Proqrama əsasən bölgədə görülən işlər meyvəçiliyin inkişafını sürətləndirir. Qədim ənənələrə malik üzümçülük sahələrinin inkişafı da elmi əsaslarla davam etdirilir, yeni üzüm bağlarının salınması diqqətdə saxlanılır.

Rayonda olarkən buradakı xırda təsərrüfat sahələrindən birinin rayon sakini Bəxtiyar Məmmədliyə məxsus olduğunu öyrəndik. Hər il kartof, lobya, xiyar, pomidor, soğan və digər ərzaq məhsulları əkdiyini deyən təsərrüfat sahibi bunların bir qismini bazara çıxarmaqla yanaşı, qış üçün də tədarük etdiyini söyləyir. Regionda meyvəçiliyin inkişafına da toxunan müsahibim tarixən meyvəçilik bölgəsi kimi tanınan Ordubadın quru meyvələrinin nəinki muxtar respublikada, xaricdə də şöhrət qazandığını vurğuladı: "Ordubad vaxtilə məşhur meyvə sortları ilə tanınıb. Bu gün həmin sortlara çox az təsərrüfatlarda rast gəlinir. Rayonun torpaq mülkiyyətçiləri daha çox məhsul verən bu sortların artırılmasına çalışırlar".

Başqa bir təsərrüfatçı Nurəli Babayev isə bildirir ki, yaz fəsli insanları qışın ətalətindən xilas edir, onları sevimli məşğuliyyətlərinə geri qaytarır. Torpaqları məhsuldar, insanları zəhmətkeş olan rayonumuzda iqlim şəraiti imkan verir ki, təsərrüfat sahələrimizdən səmərəli istifadə etməklə bol məhsul və yaxşı qazanc əldə edək. Torpağı halal qazanc mənbəyi hesab edən Nurəli dayı əkdiyi tərəvəz məhsullarını alıcısının çox olduğunu deyir. Müxtəlif ərik sortları da yetişdirən müsahibim rayonda meyvəçiliyin inkişafını yüksək qiymətləndirir: "Bu gün torpaq mülkiyyətçiləri üçün ən böyük sevinc əziyyətlərinin bəhrəsini görməkdir. Çox sevindirici haldır ki, Ordubad meyvələri, eləcə də kənd təsərrüfatı məhsulları yerli bazarlarla yanaşı, xarici bazarlarda da özünə yer tapıb. Bu bizi ürəkdən sevindirir".

Bu gün aqrar sahənin inkişafına, iqtisadiyyatın gücləndirilməsinə öz töhfəsini verən torpaq mülkiyyətçilərinin qazandıqları uğurlarda muxtar respublikanın rayonlarının müvafiq qurumlar tərəfindən hazırlanan torpaq atlasları, o cümlədən mütəmadi olaraq mütəxəssislər tərəfindən aparılan maarifləndirici tədbirlər də xüsusi rol oynayır. Qazanılan uğurlar isə hamımızı sevindirir.

Biz də rayon təsərrüfatçılarından uğurlarının davamlı, süfrələrinin bol və bərəkətli, ruzilərinin daha çox olması arzusu ilə ayrıldıq.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Yeni quşçuluq təsərrüfatları fəaliyyətə başlayıb



Bu gün muxtar respublikada kənd təsərrüfatının inkişafına, aqrar sektorda məhsul istehsalının artırılmasına və sahibkarlığın davamlı inkişafına xüsusi diqqət yetirilir. Bu sahədə qəbul olunan dövlət proqramlarının uğurlu icrası yeni iş yerləri və müəssisələrin yaradılmasına, xidmət və sosial infrastruktur təminatının həcminə müsbət təsir göstərib. Sahibkarlıq mühitinin yaxşılaşdırılması babəkli iş adamları üçün də geniş imkanlar açıb. Son vaxtlar rayonun Məzrə kəndində qaz təsərrüfatı və Hacıvarda isə yeni inkubator sahələri yaradılıb.

Məzrə gölü ətrafında yerləşən "Naxışnərgiz" Məhdud Məsuliyyətli Cəmiyyəti daxili bazarı qaz əti ilə təmin etməyi qarşısına məqsəd qoyub və bu istiqamətdə aparılan işlərə 2017-ci ildən başlanılıb. Hazırda təsərrüfatda 350 qaz saxlanılır. Təsərrüfatın genişləndirilməsi məqsədilə inkubatorlara 900 yumurta qoyulub. Qaz təsərrüfatının yaradılmasına, ümumilikdə, sahibkar tərəfindən 191 min manat vəsait xərclənib.

Təsərrüfatın rəhbəri Arzu Dünyamalıyevdən aldığımız məlumata görə, burada 1,1 hektar sahədə yeni badam bağı da salınıb, müasir suvarma sistemləri yaradılıb. Eyni zamanda sahibkar tərəfindən Məzrə gölünə 30 min ağ Amur cinsli balıq da buraxılıb. Müəssisənin gələcəkdə daha da genişləndirilməsi və istehsal olunan məhsulların xarici bazarlara çıxarılması nəzərdə tutulub.

Hacıvar kəndində fəaliyyət göstərən və Rüstəm Qafarova məxsus inkubator sahəsi də bu il öz fəaliyyətini genişləndirib. Müəssisədə, əsasən, inkubator yolu ilə əldə olunmuş cücələrin satışı həyata keçirilir. 356 kvadratmetr ərazidə yardımçı binalar tikilib, sexdə xaricdən gətirilmiş müasir aparatlar quraşdırılıb. İnkubatorlar elektron sistemlə idarə olunur və yüksək istehsal gücündədir. Burada quraşdırılan avadanlıq ildə 100 minə yaxın cücə çıxarmaq imkanına malikdir. İnkubatorlara eyni vaxtda 86 min yumurta qoymaq olar. Qeyd edək ki, müəssisə kənd sakinlərindən bazar qiymətinə uyğun yumurta alaraq cücə istehsal edir. Hazırda müəssisədə cücə satışı da həyata keçirilir.

**Muxtar RZAZADƏ**

✦ Yeni nəşrlər ✦

# Naxçıvanın milli dövlətçilik tarixindəki rolundan bəhs edən qiymətli monoqrafiya

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə 1996-cı ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundan sonra elm sahəsində başlanan inkişaf özünü aparılan elmi-tədqiqat işlərində, yeni monoqrafiya və kitabların nəşrində də göstərir. Ötən dövr ərzində Naxçıvanın tarix və mədəniyyətinin müxtəlif problemləri ilə əlaqədar çoxlu ümumiləşdirici əsərlər, məqalələr hazırlanıb, kitablar, monoqrafiyalar nəşr etdirilib. Bu günlərdə Azərbaycanşünaslığın tərkib hissəsi olan Naxçıvanşünaslıq elmi xəzinəsi yeni bir sanballı əsər ilə, akademik İsmayıl Hacıyevin uzun illərdən bəri apardığı gərgin və səmərəli tədqiqatların məhsulu olan "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyası ilə zənginləşib.***

Azərbaycan dövlətçilik tarixində Naxçıvanın yeri və rolu məsələsinin əhəmiyyətini və aktuallığını nəzərə alan akademik bu mövzunu keçən yüzilliyin 90-cı illərində elmlər doktorluğu dissertasiyası üçün tədqiqat obyekti seçərək hazırladığı dissertasiyanı 1999-cu ildə uğurla müdafiə edib. Həmin vaxtdan ötən dövr ərzində Azərbaycan dövlətçilik tarixi, Naxçıvanın bu prosesdə rolu və mövqeyinə dair əlavə tədqiqatlar aparılıb, bir sıra nəticələr əldə olunub. Müasir dövrdə dövlətçilik tarixinə artan maraq və aparılan tədqiqatlar kontekstində Azərbaycan dövlətçiliyi, onun xüsusi istiqaməti kimi bu prosesdə Naxçıvanın rolu məsələsi bu gün də aktual olaraq qalmaqdadır. Bunu nəzərə alan müəllif yenidən bu mövzuya müraciət edərək çox dəyərli bir monoqrafiya hazırlayıb.




Giriş, səkkiz fəsil, nəticə, biblioqrafiya, adlar göstəricisi və əlavələrdən ibarət olan yeni nəşrin elmi redaktoru dosent Emin Şıxəliyev, rəyçiləri AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli və Vəli Baxşəliyevdir.

Monoqrafiyada ilk olaraq diqqət Azərbaycan tarixində dövlət və dövlətçilik problemi və onun xronologiyasına dair baxışlara yönəldilib, Azərbaycan coğrafiyasında Naxçıvanın ərazisi, təbiəti və iqlim xüsusiyyətləri müəyyən edilib. Muxtar respublikada aparılan son tədqiqatlara əsaslanaraq ərazidə insanların 500 min il bundan əvvəl məskunlaşdığını vurğulayan müəllif ən qədim zamanlardan dövlətin yaranmasınadək, yəni eramızdan əvvəl IV minilliyə qədər olan dövrdə, həmçinin eramızdan əvvəl III minillik – eramızdan əvvəl II minilliyin sonları, I minilliyin əvvəllərində Naxçıvanın Azərbaycanda dövlətin yaranma prosesində rolu məsələsi tədqiqata cəlb olunub. Müəllif belə bir məntiqi nəticəyə gəlib ki, Naxçıvanın təbii-coğrafi şəraiti, burada insanların erkən vaxtlardan məskunlaşması, böyük inkişaf yolu keçməsi onların İlk Tunc dövründə və sonrakı vaxtlarda Azərbaycanda dövlətin formalaşmasında fəal rol oynamasına gətirib çıxarıb.

Araşdırmalar bir daha təsdiq edir ki, Naxçıvan Azərbaycanın ilk mərkəzləşdirilmiş dövlətlərindən olan Manna dövründə siyasi proseslər və əlaqələrdə fəal iştirak edib, Midiya, Əhəməni imperiyaları və Makedoniyalı İsgəndər dövrünün əsas faktorlarından olub, eramızdan əvvəl IV əsrdə yaranan Atropatena dövlətinin həyatında mühüm yer tutub. Bu dövr hadisələrindən bəhs edən müəllif Naxçıvanda aparılan son arxeoloji tədqiqatların nəticələrini təhlil edərək qeyd edir ki, bu ərazilər Urartu dövlətinin tərkibinə daxil olmayıb, əksinə, Naxçıvanın Urartu dövləti ilə hüdudlarında yerləşən Oğlanqala şəhər dövləti Urartuya qarşı mübarizə aparıb, onun Naxçıvan ərazisinə daxil olmasına imkan verməyib.

Naxçıvanın Atropatena dövlətində yeri və rolunu təhlil edən müəllif, qaynaqlarda Naxçıvan adının ilk dəfə çəkilməsi, bu ad haqqında olan fikirləri təhlil edərək belə bir qənaətə gəlir ki, "Naxçıvan" sözünün mənşəyi Nuh Peyğəmbərlə bağlı olub, "Nuh tayfalarının yurdu" mənasını verir. Monoqrafiyada Naxçıvan adının bölgəyə şamil edilməsi Naxçıvanın tarixi coğrafiyası ilə əlaqələndirilib. Aparılan bu müqayisə və təhlillər əsasında Naxçıvanın sənətkarlıq istehsalı və ticarət mərkəzi olub qapalı və ticarət mərkəzlərindən aralıda yerləşməsi ilə izah edilib.

İlk orta əsrlər zamanı – Azərbaycan dövlətçiliyinin mürəkkəb dövründə Naxçıvanın siyasi rolunun artdığını qeyd edən müəllif onun ərəb xilafəti dövründə də Azərbaycanda yeni dövlətlərin yaranması və möhkəmlənməsindəki rolundan da bəhs edir, ərazidə indiyədək qalan yer adlarına əsaslanaraq Naxçıvanın Xürrəmilər hərəkatının yayıldığı ərazilərdən biri olduğu vurğulanır. Kitabda həmin dövrdə mərkəzi Naxçıvan şəhəri olmaqla yaranan Naxçıvanşahlıq feodal dövlət qurumu, onun asılı və yaxud müstəqil dövlət olması təhlil edilir və belə bir qənaətə gəlinir ki, Azərbaycanın IX-XI əsrlər tarixinin ümumi mənzərəsinə uyğun olaraq Naxçıvanşahlığın bu dövrdə mövcud olduğunu qəbul etmək daha doğrudur.

Azərbaycanın ən qüdrətli dövlətlərindən olan Atabəylər dövlətinin tarixini araşdıran müəllif Naxçıvan şəhərini bu dövlətin paytaxtlarından və mərkəzlərindən biri kimi xarakterizə edib. Monoqrafiyada Atabəylər dövlətinin süqutundan sonra Naxçıvanda dövlətçilik ənənələrinin davam etdirilməsi, monqolların hücumları, Hülakülər dövlətinin yaranması, Naxçıvan tüməni, Əlincəqala, Hürufizm və azadlıq mübarizəsindən də bəhs edilib. Eyni zamanda Naxçıvanın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olduğu dövrlərə də müəyyən yer ayrılıb, Naxçıvanın mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövləti dövründəki vəziyyəti geniş şəkildə təhlil edilib. Yeni nəşrdə Osmanlılar tərəfindən yaradılan "Naxçıvan sancağı" adlı inzibati-ərazi vahidindən də danışılır. Bütün bu məsələləri dərindən təhlil edən akademik İsmayıl Hacıyev qeyd edir ki, Naxçıvan Azərbaycan Atabəylər dövlətinin 1225-ci ildə süqutu ilə Azərbaycanda dövlətçiliyin itirildiyi bir dövrdə onun bərpası uğrunda mübarizənin mərkəzlərindən biri olub, Qaraqoyunlu, Ağqoyunlu və Azərbaycan Səfəvilər dövlətinin həm meydana gəlməsi, həm də dövlətçilik tarixlərində mühüm rol oynayıb.

Monoqrafiyada Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri olan Naxçıvan xanlığı da tədqiqata cəlb olunub, onun ərazisi, idarəetmə sistemi, ordusu, pulu, gerbi, bayrağı və sair haqda müfəssəl məlumat verilib. Xanlığın 1828-ci ildə işğalından sonra çarizmin köçürmə siyasəti, ermənilərin xanlıq ərazisində yerləşdirilməsi, əhalinin müstəmləkəçilik əleyhinə mübarizəsi, çarizmin yaratdığı inzibati-ərazi bölgüləri, onun ərazi bütövlüyünün pozulması məsələlərinə də diqqət yetirilib. Həmçinin köçürülən ermənilərin bu ərazilərdə öz yerlərini möhkəmləndirdikdən sonra Azərbaycana qarşı torpaq iddialarına başlaması, bu iddialarını həyata keçirmək üçün xalqımıza qarşı 1905-1907-ci illərdə törətdikləri soyqırımlar da tarixi faktlarla oxuculara təqdim olunub.

Rusiya imperiyasının dağılmasından sonra yaranan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvandakı ictimai-siyasi, tarixi proseslər də monoqrafiyada ayrıca tədqiqat obyektinə çevrilib. Son dövrlərdə aparılan araşdırmalara əsaslanan müəllif qeyd edir ki, bu dövlətin yaranması ilə Naxçıvan əhalisi onu Azərbaycanın qanuni hökuməti kimi tanıyıb, onunla birləşməyə hazır olduğunu bildirib, əlaqələr yaratmağa çalışıb. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti də çox mürəkkəb vəziyyətdə olmasına baxmayaraq, Naxçıvanla əlaqələr yaratmaq üçün səylər göstərib, ona siyasi, hərbi və maddi yardım etməyə çalışıb. Monoqrafiyadan da aydın olduğu kimi, məhz bu dövrdə ermənilərin Naxçıvana iddiaları və təcavüzü güclənib, ona görə də bu təcavüzün qarşısını almaq üçün Naxçıvanda Araz-Türk Cümhuriyyəti yaradılıb, əhalinin köməyi ilə bölgənin ermənilər tərəfindən işğal edilməsinin qarşısı alınıb. Kitabda, həmçinin Azərbaycanın, onun ardınca Naxçıvanın sovetləşməsi, sovet rəhbərlərinin antiazərbaycan siyasəti, Moskva və Qars müqavilələri, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması, bununla da, Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanmasından da danışılır.

Sovet dövründə Naxçıvandakı ictimai-siyasi vəziyyətin, o dövrdəki tarixi-siyasi proseslərin də təhlilinin öz əksini tapdığı monoqrafiyada bu qədim diyarın Azərbaycanın dövlət müstəqilliyinin yenidən əldə edilməsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi də tədqiqat obyektinə çevrilib. Burada ötən əsrin sonlarında Azərbaycanda müstəqillik uğrunda mübarizənin ilk mərhələsində Naxçıvandakı vəziyyət təhlil olunub, ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi və onun buradakı fəaliyyətinin SSRİ-nin dağılmasında və Azərbaycanın müstəqillik əldə edilməsindəki xüsusi rolu işıqlandırılıb. Əsərdə görkəmli dövlət xadiminin Azərbaycan dövlətçilik ənənələrinin bərpası istiqamətində atdığı addımlar, Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı ildə Onun sədrliyi ilə keçirilən ilk sessiyasında qəbul olunan tarixi qərarlar, xüsusilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarlar təhlil edilib. Burada, həmçinin ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən, onun Naxçıvanın erməni təcavüzündən qorunması, iqtisadi-siyasi böhrandan xilas olması üçün həyata keçirdiyi tədbirlərdən, dövlət çevrilişinə cəhdin qarşısının alınmasından, Yeni Azərbaycan Partiyasının yaradılmasından, əhəmiyyətli islahatlardan və digər bu kimi taleyüklü məsələlərdən ətraflı bəhs olunub. Monoqrafiyada Azərbaycanın 1995-ci ildə qəbul olunan Konstitusiyasının 134-cü maddəsi ilə müəyyənləşdirilən Naxçıvan Muxtar Respublikasının statusu da diqqətə çatdırılır: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir". Akademik də belə bir elmi qənaətə gəlir ki, bu status, həm də Naxçıvanın Azərbaycan dövlətçiliyindəki roluna verilən yüksək dəyərin nəticəsidir.

Monoqrafiyanın yekununda Naxçıvan Muxtar Respublikasının 1995-ci ilin dekabrından bu günədək müasir Azərbaycan dövlətçiliyindəki rolu təhlil olunur, ilk növbədə, cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonra muxtar respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklərdən, yeni hakimiyyət orqanlarının təşkilindən, muxtar respublikanın yeni Konstitusiyasının qəbul edilməsindən bəhs edilir. 1998-ci ildə qəbul olunan bu Konstitusiyanın Naxçıvanın Konstitusiya quruluşu tarixində yeni bir mərhələ olması, bundan sonra Azərbaycan dövlətçiliyində Naxçıvanın rolunun hüquqi-siyasi baxımdan yüksəlməsi kitabda elmi tarixi faktlarla təsdiqini tapıb.

Akademik İsmayıl Hacıyev əsərdə Naxçıvanda muxtar dövlətin əsas inkişaf istiqamətləri və əldə olunan nailiyyətlərdən də bəhs edib və belə bir nəticəyə gəlib ki, son 20 ildən artıq bir dövrdə Naxçıvan siyasi, sosial-iqtisadi və mədəni inkişafının yeni mərhələsinə qədəm qoyub, Azərbaycan dövlətçiliyi tarixinə yeni səhifələr yazıb.

Azərbaycan, türk, rus, ingilis dillərində 529 ədəbiyyat və internet materiallarından istifadə olunmuş yeni nəşrdə şəxsi və coğrafi adlar göstəriciləri də verilib. Əsərin sonunda 16 mart 1921-ci il Moskva müqaviləsinin, 13 oktyabr 1921-ci il Qars müqaviləsinin mətnləri, 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul olunan Azərbaycan Respublikası Konstitusiyasının Naxçıvan Muxtar Respublikası haqqında olan VIII fəsli və Naxçıvan Muxtar Respublikasının 1998-ci ildə qəbul olunan Konstitusiyasının mətnləri "Əlavələr" şəklində verilib. Burada, həmçinin müəllifin gərgin əməyinin məhsulu olan Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyətinin qanunverici və icraedici orqanlarının inkişaf tarixinə də yer ayrılıb.

Akademik İsmayıl Hacıyevin uzunmüddətli gərgin tədqiqatlarının nəticəsi kimi ərsəyə gələn yeni monoqrafiya Naxçıvanın Azərbaycan dövlətçilik tarixində yeri və mövqeyi məsələsinə həsr olunan ilk sistemli tədqiqat əsəridir. Bu əsər ermənilərin Azərbaycana, xüsusilə onun qədim mədəniyyət mərkəzlərindən Naxçıvana ərazi iddialarının heç bir əsası olmadığını, bu ərazinin ən qədim zamanlardan Azərbaycana məxsusluğunu sübuta yetirən çox sanballı bir tədqiqat əsəridir. Naxçıvanın erkən çağlardan başlayaraq müasir tarixinə nəzər salınan əsərdən aydın şəkildə görünür ki, bu ərazilərdə heç bir vaxt erməni dövləti olmayıb, Naxçıvan bütün dövrlərdə Azərbaycanın tərkibində olub.

Yeni nəşr ermənilərin Azərbaycan xalqının köçəri, heç bir dövlətçilik ənənəsinə malik olmaması haqqındakı iftiralarını ifşa etməsi ilə də diqqəti cəlb edir. Monoqrafiyadan aydın olur ki, təxminən, 5000 illik Azərbaycan dövlətçilik tarixində Naxçıvan mühüm rol oynayıb, tarixin müxtəlif mərhələlərində bu ərazi bir sıra dövlət qurumlarının, o cümlədən Naxçıvanşahlığın, Azərbaycan Atabəylər dövlətinin, Naxçıvan xanlığının, Araz-Türk Cümhuriyyətinin mərkəzi hissəsi, Naxçıvan şəhəri isə bu dövlətlərin paytaxtı olub. Həmçinin Azərbaycan ərazisində Naxçıvan adı ilə bir neçə inzibati-ərazi vahidi (Naxçıvan tüməni, Naxçıvan sancağı və sair) yaranıb ki, onların da mərkəzi Naxçıvan şəhəri olub. Deməli, nəinki Azərbaycan, hətta onun qədim diyarı Naxçıvan da tarixi dövlətçilik ənənələrinə malikdir. Bütün bunlar isə ermənilərin Azərbaycanda qədim dövlətçilik tarixinə malik olmaması haqqında iddialarını ifşa edir.

*Naxçıvanşünaslıq elmi xəzinəsinə çox dəyərli bir töhfə olan yeni monoqrafiya Azərbaycanın qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən olan Naxçıvan haqqında həqiqətləri, onun Azərbaycan dövlətçiliyi tarixində rolu, xüsusilə 1995-ci ildən bəri muxtar dövlət kimi keçdiyi inkişaf yolu, tarixi ədəbiyyatda deyildiyi kimi burada baş verən möcüzələrlə tanış olmaq istəyənlər üçün qiymətli elmi mənbədir.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

## Zabit heyətinin təkmilləşdirilməsi kursu başa çatıb

*Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursunun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Kursu müvəffəqiyyətlə bitirən zabitlər yuxarı vəzifələrə təyin olunublar.*



Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan mərasimdə zabit İsmayıl Mədətov çıxış edərək bildirib ki, kurs zamanı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində müxtəlif ixtisaslar üzrə dərslər keçilib, trenajorlarda şəxsi heyətin sürücülük və atəş qabiliyyəti praktik olaraq daha da artırılıb. Kursa cəlb edilmiş zabitlərin virtual təlim meydançasında qazandıqları yeni biliklər real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilib.

Məzunlar söz veriblər ki, kursda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcək, ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayevin şəxsi heyətə təbriki çatdırılıb. Bildirilib ki, Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Ordumuzun gücünü nümayiş etdirən hərbi parad və taktiki təlimlərdə qazandığımız nailiyyətlərin məntiqi davamı olaraq Əlahiddə Ümumqoşun Orduda təşkil edilən zabitlərin təkmilləşdirilməsi kursunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Çünki həmin kurslar zamanı hərbi qulluqçuların bilik, bacarıq və peşəkarlıqları daim artırılır. Təbii ki, bütün bunlar da hərb işinə verilən yüksək qiymətdən xəbər verir.

Sonra kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edilib.

Kurs birincisi tərəfindən yaş kötüyünə buraxılış emblemi vurulub və məzunların yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmr mərasim iştirakçılarının diqqətinə çatdırılıb.

Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

**Nəriman NƏCƏFOV**

# Naxçıvanla tanışlıq Bursa Bölgə Dövlət Simfonik Orkestrinin kollektivində xoş təəssürat yaradıb

***Xəbər verdiyimiz kimi, Bursa Bölgə Dövlət Simfonik Orkestrinin kollektivi Naxçıvan Muxtar Respublikasına qastrol səfərinə gəlib. Səfər çərçivəsində onlar qədim diyarın bir çox gəzməli-görməli yerləri ilə tanış olublar. Orkestr üzvləri ilə görüşüb həmsöhbət olduq, qonaqlardan bir neçəsinin Naxçıvanla bağlı təəssüratlarını öyrəndik:***

***Yalçın Adıgözəlov – orkestrin dirijoru, Azərbaycan Respublikasının Xalq artisti:*** – Bu, Bursa Bölgə Dövlət Simfonik Orkestrinin Azərbaycana ilk qastrol səfəridir. Səfərin Naxçıvandan başlanması heç də təsadüfi deyil. Çünki Nuhun vətəni sayılan qədim diyar həm də Türk dünyasının böyük tarixi-mədəni mərkəzlərindəndir. Bu yurd tarix səhnəsinə neçə-neçə qəhrəman igidlər, vətənpərvər eloğulları, böyük mütəfəkkirlər, elm adamları, ictimai-siyasi xadimlər bəxş edib. Məhz dahi rəhbər Heydər Əliyevin də bu diyarda dünyaya gəlməsi, siyasi fəaliyyətinin daim Naxçıvanla bağlı olması qastrol səfərinin ilk olaraq buradan başlanmasını şərtləndirən əsas amil oldu.



Onu da qeyd edim ki, mən dəfələrlə Naxçıvana gəlmişəm və sevindirici haldır ki, hər gəlişimdə buranın daha da gözəlləşdiyinin şahidi oluram. Ən çox diqqətimi çəkən yüksək qonaqpərvərlik, Naxçıvan şəhərinin səliqə-sahmanı, küçələrin təmizliyi oldu. Bir sözlə, Naxçıvanda olmaq mənə xüsusi zövq verdi. Gəzintinin təşkilində əməyi keçən hər kəsə minnətdaram.

***Nazlı Esin – fleyta ifaçısı:*** – Naxçıvana gedəcəyimizi eşidəndə hər kəs sevindi. Qədim diyarın gözəlliyinə yaxından tamaşa etməyi, gəzməli-görməli yerlərində olmağı orkestrdə çalışan hər kəs arzu edirdi. Elə bu düşüncə ilə də Naxçıvanın bir çox tarixi abidələrini, mədəniyyət, səhiyyə müəssisələrini gəzdik. Bu yerin ecazkar təbiəti mənə müsbət enerji verdi. Əshabi-Kəhf ziyarətgahı ilə tanışlıq olduqca maraqlı keçdi. Mənim əvvəllər də bu ziyarət ocağı haqqında məlumatım var idi. Ancaq, necə deyərlər, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Ziyarətgahda olduğum müddətdə diləklər tutub, dualar etdim. Möcüzəli abidənin mövcudluğunun İslam dinindən öncəyə təsadüf etməsi Naxçıvanın böyük tarixi sivilizasiya məkanı olduğunu sübut edir. Bir daha əmin oldum ki, bu qədim yurdun hər daşında, hər qayasında böyük bir tarix yatır. Təqdirəlayiq haldır ki, muxtar respublikada tarixi-mədəni abidələr qorunur, bərpa edilir və gələcək nəsillərə ərməğan olunur. Gəzib-gördüyüm yerlərdə bu mütərəqqi addımın təzahürü ilə qarşılaşdım.



***İlkər Kıroğlu – faqot ifaçısı:*** – Qədim diyarla tanışlığımız qısa olsa da, məndə böyük təəssürat yaratdı. İlk olaraq Heydər Əliyev Muzeyində olduq. Burada dahi rəhbərin həyat və fəaliyyətinə dair eksponatlara baxdıq. Öyrəndiklərimdən belə nəticəyə gəldim ki, Türk dünyasının iki dahi şəxsiyyətinin – Mustafa Kamal Atatürklə Heydər Əliyevin siyasi fəaliyyətlərinin oxşar cəhətləri çoxdur. Onların apardıqları uzaqgörən siyasət müstəqil dövlət quruculuğuna, xalqın firavanlığına xidmət etməklə bərabər, həm də iki qardaş ölkəni bir-birinə bağlayıb. Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, ulu öndər Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” kəlamları hər iki ölkənin bugünkü birliyinin əsasını təşkil edir. Bu gün uğurla davam etdirilən bu siyasət ölkələrimizi qırılmaz tellərlə bir-birinə bağlayır.



Azərbaycanın qədim torpağı Naxçıvanda müasir infrastrukturun yaradılması, geniş park və xiyabanların salınması, gülkarlıq ərazilərin çox olması buranı əsl cənnətməkana çevirib. Qastrol səfərimiz zamanı gəzdiyimiz yerlər xatirəmdə silinməz izlər buraxdı, olduqca yaddaqalan günlər yaşadıq. Bizə bu imkanı yaradanlara minnətdaram.

***Pınar Balcı – skripka ifaçısı:*** – Bu, mənim Naxçıvana ilk gəlişim olsa da, qədim diyar haqqında kifayət qədər məlumatlı idim. Naxçıvanda gəzdiyim yerlərdən ən çox diqqətimi çəkən Möminə xatın türbəsi oldu. Həqiqətən də, bu abidəyə tamaşa etdikcə heyranlığımı gizlədə bilmirsən. Əsrlər öncə insan oğlunun bu qədər dəqiq hesablama əsasında gözəl bir abidə yaratdığına həsəd aparmamaq mümkünsüzdür. Abidə ilə tanışlıq zamanı öyrəndim ki, Azərbaycan milli memarlığının möhtəşəm nümunəsi, Şərq memarlığı incilərindən olan bu türbə 1186-cı ildə ucaldılıb. Fəxr edə bilərsiniz ki, Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatının şərəfinə tikilən bu abidə əsrlərdən bəridir ki, bütövlükdə, Türk dünyasında anaya, qadına yüksək sevgi və ehtiramın rəmzi kimi məhz Naxçıvan torpağında ucalır. Görkəmli Memar Əcəminin sənət inciləri bütün Türk dünyasına məlumdur. Səmərqənddən Təbrizə, Marağadan Konyaya qədər hər yerdə bu memarlıq məktəbinin nişanələrini görmək olar. Abidənin yerləşdiyi ərazini seyr etdikcə qədimliklə müasirliyin vəhdəti gözlər önündə canlanır.



Naxçıvanla tanışlıq məndə bu diyar haqqında zəngin təəssürat yaratdı. Böyük fərəh hissi ilə deyirəm ki, Naxçıvan əsl gəzməli-görməli, yaşamalı yerdir. Buranı cəlbedici göstərən amillər çoxdur. İnsanların gülərüz və qonaqpərvərliyi, tarixi-mədəni abidələr, səliqə-sahman və abadlıq, təmiz hava, gözəl təbiət, müasir infrastruktur, bir sözlə, görünən hər şey könüloxşayandır. Burada olduğum üçün çox sevincliyəm. Gələcəkdə yolumu tez-tez Naxçıvandan salmağı düşünürəm.

✍ **Nail ƏSGƏROV**

# “Heydər Əliyev kuboku” uğrunda turnirlər keçirilir



***“Heydər Əliyev kuboku” uğrunda kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız atletləri arasında keçirilən Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi turnir Duzdağ magistral yolunun 5 kilometrlik məsafəsində keçirilib. Turnirdə 250-yə yaxın atlet mübarizə aparıb.

Turnirin açılış mərasimində çıxış edən Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafına da xüsusi diqqət yetirilir. Hər il istifadəyə verilən yeni tikililər arasında idman obyektləri mühüm yer tutur. Bu, digər idman növləri kimi yüngül atletikanın da gənclər arasında kütləviliyin təmin edilməsinə şərait yaradır. Yüngül Atletika Federasiyası yarandığı gündən muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir, idman yarışlarının yüksək səviyyədə hazırlanmasına və keçirilməsinə nail olub. Bunun nəticəsidir ki, idmançılarımız Avropa və dünya, beynəlxalq turnirlərdə Naxçıvanı layiqincə təmsil edirlər. Rövşən Məmmədov çıxışının sonunda turnirdə iştirak edən hər bir idmançıya uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov isə çıxışında vurğulayıb ki, 2018-ci il muxtar respublikamızın idman həyatında keçiriləcək mühüm tədbirlərlə, yarışlarla yadda qalacaq. Buna səbəb cari il Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması ilə yanaşı, gənclərimizin də fəal iştirakı nəticəsində şəhərimizin ölkənin Gənclər Paytaxtı seçilməsidir.

Nazir qeyd edib ki, Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Azərbaycana rəhbərliyi dövründə digər sahələr kimi, idmana da qayğı ilə yanaşıb. Bu gün muxtar respublikada da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Naxçıvanda müasir idman infrastrukturunun, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana kütləvi şəkildə cəlb olunmasına geniş imkanlar açır.

Muxtar respublikanın təhsil nazirinin müavini Əli Vəliyev qeyd edib ki, bu gün nüfuzlu idman tədbirlərinin keçirilməsi üçün hər bir şərait yaradıldığı diyarımızda bütün məktəblərin idman zalları yenidən tikilib və ya bərpa olunaraq istifadəyə verilib. Bu da yeniyetmə və gənclərin fiziki sağlamlıq və idman vərdişlərinin formalaşmasında, dostluq münasibətlərinin yaranmasında mühüm rol oynayır.

Turnirin yekun nəticəsinə gəlincə, oğlanlar arasında finiş xəttinə hamıdan tez Əmrah Tağıyev (“Rabitə” İdman Klubu) çatıb. Digər iki pillədə Cavid Qasımov (Naxçıvan Dövlət Texniki Kolleci) və Səfər Tağıyev (“Rabitə” İdman Klubu) qərarlaşıblar.

Qızların mübarizəsində isə Gülayə Cəfərova (Naxçıvan Dövlət Universiteti) qalib adını qazanıb. Cansu Abbasova və Telli Abbasova (hər ikisi Naxçıvan Dövlət Texniki Kolleci) ikinci və üçüncü olublar.

Sonda qalib idmançılara diplom, fəxri fərman və hədiyyələr təqdim olunub.

* * *

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının təşkil etdiyi boks üzrə “Heydər Əliyev kuboku” uğrunda muxtar respublika turnirinə start verilib.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə 100-ə yaxın dəri əlcək sahibi iştirak edir. Boksçular 12 çəki dərəcəsində (42, 44, 48, 50, 52, 54, 57, 60, 64, 69, 75 və +81 kiloqram) mübarizə aparırlar.



Artıq turnirin finalçıları məlum olub. Bu gün keçiriləcək final görüşlərində qaliblər müəyyənləşdiriləcək.

# Naxçıvan şəhər birinciliyinə start verilib

***15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş Yeni Azərbaycan Partiyasının gənc üzvləri arasında mini-futbol üzrə Naxçıvan şəhər birinciliyinə start verilib.***

Birincilikdə iki qrup (“A” və “B” qrupları) üzrə 10 komanda dairəvi sistem üzrə mübarizə aparacaqdır. Yarışın ilk oyunu “A” qrupunda Naxçıvan Muxtar Respublikası Statistika Komitəsi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin komandaları arasında keçirilib və görüş ikincilərin qələbəsi ilə (11:6) başa çatıb. Digər oyunda (“B” qrupunda) Naxçıvan Dövlət ilə “Naxçıvan” universitetlərinin komandaları qarşılaşıb. Bu görüşdə Naxçıvan Dövlət Universitetinin komandası 6:1 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, birincilik bu il iyunun 13-dək davam edəcəkdir.

# “C” qrupunda naxçıvanlı şahmatçıların liderliyi davam edir

Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalı davam edir.



“A” qrupunda keçirilən üçüncü turun oyunlarında liderlər üz-üzə gəlib. Azərbaycanlı qrossmeyster Eltac Səfərli (2657) belaruslu qrossmeyster Aleksey Aleksandrovla (2594) qarşılaşıb. Rəqiblərin qarşılaşması heç-heçə başa çatıb. Azərbaycanlı qrossmeysterlərdən Qədir Hüseynov (2654) və Nicat Məmmədovun (2602) da görüşü “sülh”lə başa çatıb. Ukraynalı qrossmeyster Vitaliy Bernadskiy (2589) bu turda türkiyəli qrossmeyster Sanal Vahapı (2505) məğlub etməklə liderlər sırasında qərarlaşıb. İsrailli qrossmeyster İlia Smirin (2592) və almaniyalı qrossmeyster İqor Xenkin (2557) də bu turu qələbə ilə başa vuran şahmatçılardır. Onlar müvafiq olaraq portuqaliyalı qrossmeyster Luis Qaleqo (2477) və azərbaycanlı beynəlxalq usta Məhəmməd Muradlını (2417) məğlub ediblər. Qazaxıstanlı beynəlxalq usta Pak Yevgeni (2390) isə yunanıstanlı qrossmeyster Vasilios Kontroniasdan (2518) üstün olub.

Naxçıvanlı zəka sahiblərindən qrossmeysterimiz Urfan Sevdimalıyev (2397) qrossmeyster Fərid Abbasovla (2531), FİDE ustamız Pərviz Qasımov (2329) beynəlxalq usta Abdulla Qədimbəyli (2419), beynəlxalq usta Toğrul Həsənzadə (2350) isə İran şahmatçısı, qrossmeyster Mitra Hejazipur (2283) ilə qarşılaşıb. Hər üç şahmatçımız ağqara taxtanı məğlub tərk edib. Ağ fiqurlarla mübarizə aparan FİDE ustası Sadiq Məmmədov (2293) isə iranlı beynəlxalq usta Tahbaz Araşla (2451) “sülh” bağlayıb.

Hazırda turnir cədvəlinə 8 zəka sahibi 2,5 xalla başçılıq edir.

“B” qrupunda naxçıvanlı zəka sahibi Sadiq Qarayevin (1530) liderliyi davam edir. İdmançımız üçüncü turda Bakı şahmatçısı Emin Novruzovu (1855) məğlub edib. Ümumiyyətlə, bu qrupda 10 zəka sahibi 3 görüşdən maksimum xal toplayıb.

Beynəlxalq Şahmat Festivalının “C” qrupunda da naxçıvanlı şahmatçıların liderliyi davam edir. Belə ki, Nazlı Hümbətova, İlkin Qabulov, Elçin Rza və Sadiq Abbasov keçirdikləri hər üç görüşdə ağ-qara taxtanı qalib tərk ediblər. Hazırda bu qrupda 13 şahmatçının 3 xalı var.

✍ **Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Növbətçi: Növbəmə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 331